

# Tarixin yadigarı - Məmmədbəyli türbəsi

Qədim abidələr yurdun, məmləkətin tarixinin nişanəleridir. Eyni zamanda o yerlərdə müxtəlif dövrlərdə yaşamış əhalinin həyatı, düşüncələri, inancı və adət-ənənələrindən soraq verir. Azərbaycanın qədim abidələrlə zəngin yurdlarından biri olan Zəngilan rayonunun Məmmədbəyli kəndindəki türbə də bu mənada dəyərlidir.

Araşdırmaçılar səkkizguşəli prizmadan ibarət olan Məmmədbəyli türbəsi barədə ilkin məlumatın 1940-cı illərdə rus tarixçisi İvan Şeblıkinin verdiyini qeyd ediblər. İ.Şeblıkin Araz və Həkəri çaylarının hövzəsindəki abidələri - Füzuli rayonundakı Mir Əli, Qubadlı rayonundakı Dəmirçilər kəndi yaxınlığındakı türbəni və başqa abidələri qeyd edib. Onların təsvirini verib. Ancaq memarlıq quruluşu cəhətdən həmin türbələrdən fərqlənən Məmmədbəyli türbəsinin təsvirini olduğu kimi verməyib.

1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənib, türbənin sərdabəsi üzə çıxarılıb. Türbənin qapı yerindən yuxarı qövsvari çatılmış bütöv daş üzərində həkk olunmuş kitabəsi maraqlı və orijinaldır. Aradan keçən zaman ona təsir göstərsə də, bəzi yerlərdə daş sınıb töküldüyü üçün xarab olsa da, yazılar pozulsa da, izi qalmış müəmmalı sözlər çətinliklə oxunub, bərpa edilib. Mütəxəssislərin nəsx xətti ilə yazıldığını bildirdikləri, altısətirlik ərəbdilli kitabə oyma üsulunda yazılıb. Dörd sətirdə "Qurani-Kərim"dən ayələr həkk edilib. İki sətirdə türbənin Məhəmməd əl-Hacı oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi qeyd olunub. Araşdırmalara görə, kitabədə göstərilən "Əl-Hac" ləqəbi bütün orta əsrlər dövründə dövlət xadimlərinə verilərmiş.

XIV əsrdə İpək yolu üzərində abidələr yaratmış Əli Məcdəddin bu binanın da memarı və bənnasıdır. Kitabənin son iki sətri belə tərcümə olunub: "Mən, bu imarətin sahibi, yəni türbədə dəfn olunmuş Məhəmməd əl-hac oğlu, zəif qul, yüksək Allahın rəhmətinə möhtac, miskin Yəhyayam. Əli Məcd-əd Dinin əli ilə mübarək ramazan ayında yeddi yüz dördüncü il tarixdə bina olundu".

Məlumata görə, Anadoludan Çinə qədər Araz boyu karvan-ticarət yolu olan İpək yolu üzərində, Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilən karvansaranın kitabəsi ilə həmin yol üzərində, Zəngilanın Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd türbəsinin qapısı üzərində qoyulan kitabə ölçüsü, forması, həkkolunma texnikasına görə eynidir. Səlim keçidi adlanan yerdə tikilmiş karvansaranın kitabəsində də memar Əli Məcdəddinin adı yazılıb. Araşdırmaçıların fikrincə, bu iki abidəyə bənzəyən başqa bir abidəyə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib.

Dövrümüzədək salamat gəlib çatan abidələrdən biri olan Məmmədbəyli türbəsinə otuz ilə yaxın əlimiz yetmədi. Belə ki, abidənin yerləşdiyi ərazi 1993-cü ildə təcavüzkar Ermənistan tərəfindən işğal edildi. Qarabağın və Şərqi Zəngəzurun erməni əsarətində qalan digər yerləri kimi Zəngilanda da onlarca tarixi-dini abidə talan olundu. Məmmədbəyli türbəsi də erməni vandalizminə məruz qaldı. Ermənilər işğal dövründə abidənin müəyyən hissələrində dağıntılar törədiblər.

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub etdi. İndi o ərazilərdəki bütün abidələri yaxından görə bilirik. Azərbaycan dövləti geniş tikinti-bərpa və quruculuq işlərini həyata keçirir. Ermənistanın işğalı müddətində Qarabağda və Şərqi Zəngəzurda talan edilən, dağıdılan abidələrin hər biri yenidən bərpa olunur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



Azərbaycan.- 2023.- 28 mart.- S.7.